Azərbaycan Dövlət Pedaqoji
Universitetinin Elmi Şurasının
24 oktyabr 2018-ci il tarixli iclasının
qərarı ilə (protokol № 2) təsdiq edilmişdir.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Adlı təqaüdləri haqqında**
**ƏSASNAMƏ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Dövlət Pedaqoji Universitetinin (bundan sonra ADPU) Adlı təqaüdləri haqqında Əsasnaməsi (bundan sonra Əsasnamə) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsinin 3.8-ci maddəsinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"na, ADPU-nun Nizamnaməsinin 3.5-ci bəndinə və digər qanunvericilik aktlarına müvafiq olaraq hazırlanmışdır.

1.2. Bu Əsasnamə ADPU-da adlı təqaüdlərin təsis olunması, təyin olunması, ödənilməsi, dayandırılması və ləğv olunması ilə bağlı məsələləri müəyyən edir.

1.3. ADPU Elmi Şurasının qərarı ilə adlı təqaüd təsis və onun məbləği təsdiq edilir.

1.4.ADPU-da təhsildə xüsusi fərqlənən Azərbaycan Respublikasının vətəndaşı olan bakalavriat, magistrant və doktorantlara bu əsasnamə ilə müəyyən edilmiş qaydada adlı təqaüd verilir.

1.5. Bu əsasnaməyə əsasən ADPU-nun büdcədənkənar vəsaitlər hesabına adlı təqaüdlər universitetin Elmi Şurası tərəfindən müəyyən olunur və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənilir.

1.6. Bakalavriat səviyyəsində adlı təqaüdün verilməsi ADPU-nun fakültələrinin, magistratura və doktorantura səviyyələrində isə Magistratura və doktorantura şöbəsinin təqdimatı əsasında Universitet Elmi Şurasının qərarına uyğun olaraq, bakalavriat səviyyəsində təhsil alan tələbələr üçün III tədris ilindən, magistratura və doktoranturada isə II tədris ilindən başa vurduğu semestrin nəticələrinə görə növbəti semestr ərzində həyata keçirilir.

1.7. Adlı təqaüd ayda bir dəfə ödənilir. Təhsilalanların adlı təqaüdü fakültə və ya ixtisas üzrə təhsil proqramı ilə müəyyən edilmiş müddətdə almaq imkanı var.

1.8. Təhsilalanlara adlı təqaüdün verilməsi onların ADPU-dan xaric olunduğu gündən dayandırılır.

1.9. İstehsalat təcrübəsi və tətil müddətlərində təhsilalanın adlı təqaüd alma hüquqları saxlanılır.

1.10. Adlı təqaüd alan təhsilalanlara Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsis edilən təqaüdlərin, adlı və digər bu kimi təqaüdlərin təyin edilməsi, həmin şəxsin adlı təqaüdünün dayandırılmasına səbəb ola bilməz.

1.11. Hamiləliklə, doğuşla əlaqədar və müvəqqəti olaraq əmək qabiliyyətini itirmiş təhsilalanlara səhiyyə müəssisələri tərəfindən verilmiş xəstəlik vərəqəsinə əsasən müəyyən olunmuş müddətdə (cari tədris semestrinin müddətindən çox olmayaraq) adlı təqaüd tam həcmdə ödənilir.

## 2. ADPU-nun adlı təqaüdlərinin təyin olunması və ödənilməsi

2.1. Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, ADPU-nun əyani formada təhsilalanlara adlı təqaüd onların ümumi orta müvəffəqiyyət göstəricilərinə (bundan sonra - ÜOMG) görə verilir. İxtisas və ya fakültə üzrə ən yüksək ÜOMG ilə semestri başa vuran təhsilalana fakültə fakültə Elmi Şurasının, Magistratura və doktorantura şöbəsinin tövsiyəsi və ADPU Elmi Şurasının qərarı ilə adlı təqaüd təyin olunur.

2.2. ÜOMG təhsilalanların təhsil proqramını mənimsəmə səviyyəsinin göstəricisidir. ÜOMG təhsilalanların tədris fəaliyyətini fəallaşdırmaq, özünənəzarət mexanizmini yaratmaq, tədrisdə əldə etdiyi nailiyyətlərini qiymətləndirmək məqsədi ilə tətbiq edilir.

2.3. ÜOMG təhsilalanların fənlər üzrə topladığı balların həmin fənnə görə qazanılan kreditlərə hasilləri cəmlərinin tədris planında həmin semestrdə tədris olunan fənlərə görə nəzərdə tutulan müvafiq kreditlərin cəminə olan nisbəti kimi müəyyənləşdirilir:

$$\text{ÜOMG} = \frac{b_1k_1^* + b_2k_2^* + b_3k_3^* + \ldots + b_nk_n^*}{k_1 + k_2 + k_3 + \ldots + k_n}$$

burada $b_1, b_2, \ldots, b_n$ - təhsilalanın fənlər üzrə topladığı ballar; $k_1, k_2, \ldots, k_n$ - tədris planında həmin semestrdə tədris olunan fənlərə görə nəzərdə tutulan müvafiq kreditlər; $k_1^*, k_2^*, \ldots, k_n^*$ - fənlər üzrə qazanılmış kreditlər. Əgər təhsilalan imtahandan müvəffəq qiymət almazsa, o, krediti qazanmamış hesab edilir və bu əmsal sıfır olur.

2.4. ADPU-da ixtisaslar (və ya fakültələr ) üzrə təqaüdlərin adı və sayı universitet Elmi Şurasının qərarı ilə müəyyənləşdirilir.

2.5. ADPU-da hər bir ixtisas (və ya fakültə) üzrə təqaüdlərin sayı nəzərə alınmaqla, imtahan sessiyasının nəticələrinə əsasən ÜOMG-yə görə ən yüksəkdən başlayan sıralanmaya uyğun növbəti semestrdə adlı təqaüd alacaq təhsilalanların siyahısı müəyyən edilir. Eyni tədris ili üzrə eyni ixtisasda təqaüd alacaq təhsilalanların siyahısı müəyyənləşdirilərkən tədris dili nəzərə alınmır.

2.6. Adlı təqaüd almaq hüququnu qazanmış şəxslərə (təhsilalanlara) təqaüdlər semestr üzrə (birinci tədris ilinin birinci semestri istisna olmaqla) imtahan sessiyasının nəticələrinə əsasən fənlər üzrə göstəricilərinə görə müəyyənləşdirilir.

2.7. Hər bir tədris ili üçün ixtisas (və ya fakültə) üzrə adlı təqaüd almaq hüququ olan təhsilalanların siyahısında sıralanmada sonuncu yerə bir neçə iddiaçı olduğu halda, birinci tədris ilinin ikinci semestrində ADPU-ya qəbul imtahanından topladığı bal, sonrakı semestrlərdə isə əvvəlki semestrdəki ÜOMG-si yüksək olan tələbəyə üstünlük

verilir. Bu hallarda seçim müəyyən olunmadıqda ixtisas fənləri və Tələbə Həmkarlar İttifaqı Komitəsinin rəyi nəzərə alınır.
2.8. Adlı təqaüdlər ADPU-nun filiallarında və Azərbaycan Dövlət Pedaqoji Kollecində bu qaydalara əsasən hazırlanmış və müvafiq olaraq filialların Elmi Şurasında və Kollecin Pedaqoji Şurasında təsdiq edilmiş daxili qaydalara əsasən təyin oluna bilər.
2.9. ADPU-da adlı təqaüd alan tələbə daxili intizam məsuliyyətinə cəlb olunduğu təqdirdə onun təqaüdü Rektorun əmri ilə dayandırla bilər. Bu zaman bu adlı təqaüd 2.7.-ci maddəyə əsasən digər tələbəyə verilə bilər.
2.10. Dövlət hesabına təhsil alan doktorantlara birinci təhsil ilində qanunvericiliklə müəyyən olunmuş məbləğdə təqaüd verilir. Növbəti təhsil illərində adlı və məqsədli təqaüd illik attestasiyanın nəticələrinə görə təyin edilə bilər. İllik attestasiyadan keçməyən doktorantın adlı təqaüdü dayandırılır.

**3.Yekun müddəalar**

3.1. Bu əsasnamə ADPU Elmi Şurasında qəbul olunmuş və rektorun müvafiq əmri ilə qüvvəyə minir. Eyni qaydaya əsasən bu əsasnaməyə əlavələr, dəyişikliklər edilə və ya ləğv oluna da bilər.
3.2. Adlı təqaüdlərin təyin olunması və verilməsində bu əsasnamə ilə müəyyən edilməmiş hallar mövcud qanunvericilik əsasında tənzimlənir.